# Ələsgərəm, hər elmdən halıyam...




**Dədə Qorquddan günümüzə kimi sazın, sözün sehrinə düşənlər çox olub. Kimi tarixdə, kimi arxivdə, kimi də millətin yaddaşında əbədilik qalıb. Şöhrəti Azərbaycan hüdudlarından kənarlara yayılan ustad aşıqlardan biri də Dədə Ələsgər olub. O, aşıq-ozan sənətinin, xalq şeirinin ən böyük nümayəndələrindən və bu şeirin ən uca zirvələrini fəth edən sənətkarlardandır. Aşıq poeziyasını bol həyati müşahidələrlə zənginləşdirmiş, həm məzmun, həm forma rəngarəngliyi, həm də saf, duru xalq dilindən istifadə baxımından Aşıq Ələsgər Azərbaycan, ümumən türk şeirinə misilsiz xidmət göstərmişdir.**

Onun özünəməxsus nikbin, şən ruhlu şeirləri, sadəcə gözəl qızlara deyil, vətənin gözəlliklərinə də həsr olunub. Aşıq Ələsgərin təbiətə həsr etdiyi şeirlərində vətənpərvərlik, xalqa bağlılıq qabarıq şəkildə ifadə olunub. Onun "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları ədəbiyyatımızda doğma yurdun gözəlliyinə həsr olunmuş ən maraqlı əsərlərdəndir. Məsələn, "Yaylaq" rədifli qoşmasında yazda el-obanın üz tutduğu, el gözəllərinin, igidlərin yığışdığı, aşıqların saz çalıb, söz qoşduğu səfalı yaylaqlar, seyrəngahlar tərənnüm edilir. Azərbaycanın zəngin təbiəti, buz bulaqları, gülçiçəkli düzləri, başı buludlardan nəm çəkən şiş dağları, meşələri aşığın yaradıcılığının əsas mövzularından olmuşdur. Böyük el sənətkarı aşıq şeirinin demək olar, bütün janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır.

***Bahar fəsli, yaz ayları gələndə***
***Süsənli, sünbüllü, lalalı dağlar.***
***Yoxsulu, ərbabı, şahı, gədanı***
***Tutmaz bir-birindən aralı dağlar.***

Aşıq Ələsgərin doğulduğu ərazi də özünəməxsus təbii gözəllikləri ilə seçilən, qədim yurd yerlərimizdir. O, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Kəndin hörmətli şəxslərindən biri atası Alməmməd kişi əkin-biçinlə, dülgərliklə məşğul olmuş, uşaqları böyüdükdən sonra güzəranını yaxşılaşdırmaq üçün dəyirman işlətmişdir. O da məclislərdə bədahətən şeir qoşar, bayatı, gəraylı qoşma söyləyərmiş. Belə bir mühitdə böyüyən Ələsgərin həyat və yaradıcılığında bütün bunlar böyük rol oynamışdır. Lakin övladları böyüdükcə Alməmməd kişinin qayğıları da artmış, maddi çətinlik çəkən ailə məcburiyyət qarşısında qalaraq böyük övladları Ələsgəri 14 yaşında Kərbəlayı Qurban adlı bir varlının yanında işə qoymuşlar. Ələsgər 2 il Kərbəlayı Qurbanın həyətində işləmişdir.

Heç bir təhsili olmayan Ələsgər uşaqlıqdan güclü yaddaşı ilə fərqlənmişdir. Getdiyi el məclislərində rəvayətlərə, nağıllara, dastanlara böyük maraq göstərmiş, eşitdiklərini güclü yaddaşında hifz edib saxlamışdır. Güclü yaddaşı olduğundan eşitdiyi söhbətlərin hamısını hafizəsində saxlayar, sonra heç bir çətinlik çəkmədən başqalarına danışardı. Onun bu qabiliyyəti bir müddət sonra öz sözünü demişdir. Qulaq asdığı aşıqların məclisləri, toy şənlikləri saza, sözə ciddi maraq oyatmış və ilk şeirlərinin yaranmasına səbəb olmuşdur. Atası oğlunun bu qabiliyyətini hiss etmiş və onu aşıq sənətinin sirlərini öyrənmək üçün Aşıq Alının yanında şəyirdliyə qoymuşdur. Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin sənətkar kimi püxtələşməsində böyük rol oynamışdır. Eyni zamanda digər aşıqlardan da dərs alan el sənətkarı aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmişdir. Aşıq sənətinin sirlərini öyrəndiyi müəllimlərini həmişə sevgi, hörmətlə anan sənətkar belə demişdir.

***Bir şəyird ki, ustadına kəm baxa,***
***Onun gözlərinə qan damar, damar.***

Ustadlarından mükəmməl dərs alan Ələsgər Göyçənin el məclislərini aparsa da tezliklə şöhrəti qonşu mahallara da yayılır. Onu İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə və digər bölgələrə sevə-sevə dəvət edirlər. O, təkcə Azərbaycanda yox, Türkiyədə, İranda və Dağıstanda da ustad bir sənətkar kimi tanınmışdır. XIX əsrin 50-ci illərindən başlayaraq, çiynində saz müxtəlif mahalları gəzib-dolaşmışdır.

Ustad Dədə Ələsgər yaradıcılığında onun mübarizliyi, poetik ruhu, elmi cəhətdən dünyagörüşü, hadisələrin içərisinə nüfuzetmə bacarığı və yeri gəldikcə, aşığın bir şəxsiyyət kimi kamilliyi, əxlaqi təmizliyi, mənən zəngin bir övliya kimi görünüşü olduqca zövqverici olmuşdur. Məclislər yaraşığı Ələsgərin səsi, nəfəsi kimi, zahiri görkəmi də aşıqlıq sənəti üçün biçilmişdi sanki. Müasirlərinin dediyinə görə, o, ucaboy, enlikürək, bədəncə sağlam, qüvvətli imiş. Əyninə uzun ətəkli arxalıq, üstündən çuxa, ayağına məst geyər, başına buxara papaq qoyarmış. Onu fərqləndirən digər bir xüsusiyyəti isə sazı sol əli ilə çalması idi.



Onun yaradıcılığının bir qismini cəmiyyətdəki nöqsanları, ədalətsizliyi, istismarı tənqid edən ictimai motivli şeirlər təşkil edir. "Çıxıbdı", "Görmədim" əsərlərində həyatın bərkini-boşunu görmüş müdrik aşıq zəmanəsində müşahidə etdiyi nöqsanlara, zülm və haqsızlığa, özbaşınalığa kəskin tənqidi münasibətini bildirir.

***Haqq sözə gərəkdi, düz qiymət olsun,***
***Qiyməti verməyə mərifət olsun.***
***İnsanda insanlıq, səxavət olsun,***
***Neylərəm ki, cah-calalı varıymış.***

O dövrdən keçən müddət ərzində bir çox aşıqlar Ələsgərdən bəhrələnmişdir. Yaratdığı mükəmməl məktəb bütün zamanlarda bu sənət sahiblərinə örnək olmuşdur. Aşığın yaradıcılığı mövzu-məzmun, janr baxımından çox zəngindir. Külliyyatında yumoristik-satirik şeirlər də çoxluq təşkil edir. Çünki Aşıq Ələsgər yaradıcılığında təkcə lirik deyil, satirik məzmunlu şeirlər də həm ideya-məzmunu, həm də sənətkarlığı baxımından mühüm çəkiyə malikdir. Yalançı din xadimlərinin ifşası onun ictimai məzmunlu satirik şeirlərində də yer alıb. Aşıq Ələsgərin ailə-məişət mövzusundakı yumoristik şeirləri daha çox islahedici xarakteri ilə, yüngül istehza və zarafat yolu ilə yazılması ilə diqqəti cəlb edir. Qüdrətli söz ustadı nə qədər gözəllik, təbiət və vətən aşiqi olsa da bütün bu anlayışları insandan və onun yaşadığı zəmanədən ayrı təsəvvür etməmişdir.

Ahıl yaşlarında ailəsində baş verən bədbəxt hadisələr aşığa ağır təsir etmişdir.

1915-ci ildə aşığın həyatında daha kədərli bir hadisə baş verir: qardaşı oğlu, həm də kürəkəni cavan yaşında vəfat edir. Bir il sonra oğlu Bəşir kəndin kovxasını güllə ilə vurub qaçır. Bundan ötrü aşığın qardaşı Xəlili və ortancıl oğlu Əbdüləzizi tuturlar. Bu hadisələr qoca aşığın qəlbində dərin bir qüssə, qəm-kədər əmələ gətirir. Onun sənətkar ürəyi elə tutulur ki, bir daha əlinə saz alıb çala bilmir. Bir neçə il sonra isə erməni daşnaklarının Göyçə mahalında törətdiyi qırğın nəticəsində Aşıq Ələsgər ailəsi ilə birlikdə Kəlbəcərin Yanşaq kəndinə, oradan da Tərtərə köçmüşdür. İki il sonra doğma kəndinə qayıdan aşıq ömrünü burada başa vurmuş, 1926-cı ildə vəfat etmişdir.

Aşıq Ələsgərin zəngin bədii irsi toy və şənlik məclislərində, çeşmə başında, yaylaqlarda bədahətən dediyi gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, müxəmməs və digər janrlarda olan əsərlərdən ibarətdir. Şeirlərində başlıca yeri məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiətin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutmuşdur.

Azərbaycan dövləti bütün dövrlərdə Aşıq Ələsgər yaradıcılığına xüsusi diqqətlə yanaşmışdır. 1972-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin anadan olmasının 150 illiyi təntənəli şəkildə qeyd olunmuş, bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən onun əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir. Həmçinin ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Aşıq Ələsgərin 175 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Bu gün də Prezident İlham Əliyev tərəfindən sənətə və sənətkara verilən qiymət layiqincə davam etdirilir. Gədəbəydə "Aşıq Ələsgər adına Aşıq məktəbi"nin açılması çox təqdirəlayiq bir haldır. Eyni zamanda ötən il Prezident İlham Əliyevin Sərəncamına əsasən Bakı şəhərində Aşıq Ələsgərin möhtəşəm abidəsinin açılışı olmuşdur. Ümidvarıq ki, yaxın gələcəkdə ustad aşığın abidəsi yenidən doğma Göyçədə ucaldılacaq və ustadın nigaran ruhu rahatlıq tapacaq.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**